**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№373/1** **24 yanvar 2025-ci il**

**“Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat” barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində Beynəlxalq Audit Standartlarının tətbiqinin zəruriliyi və xüsusi əhəmiyyəti barədə proqram xarakterli tövsiyələrini rəhbər tutaraq, “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanunundan, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası”ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin və Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.2.2-ci “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə təlimatın hazırlanması” bəndinin icrasının təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat” bəyənilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat”ın auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir həftə müddətində “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartlari ilə birlikdə) tətbiqi üzrə Təlimat” barədə auditor təşkilatları və sərbəst auditorların iştirakı ilə seminarın keçirilməsini təmin etsin.
4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və Təlimatın mətnlərinin Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**